A.S.QRİBOYEDOVUN QƏTLİ İLƏ BAĞLI XOSROV MİRZƏ QACARIN PETERBURQ SƏFƏRİ

DİPLOMATİK YAZIŞMALAR

QANUN NƏŞRİYYATI

Cənubi Qafqaz uğrunda Çar Rusiyası ilə Qacarlar dövləti arasında aparılan müharibələrdən sonra Gülüstan və Türkmənçay sülh müqavilələri bağlandı. Böyük rus yazıçısı və diplomatı A.S.Qriboyedov vəziri-muxtar – səlahiyyətli səfir rütbəsində Tehrana göndərilir.

Müsəlman mühitinə zidd hərəkətləri nəticəsində A.S.Qriboyedov bütün səfirlik heyəti ilə qətlə yetirilir. Hazırkı kitab bu qətldən sonra Qacarlar hökumətinin Peterburqa göndərdiyi üzrxahlıq missiyasının səfərinə həsr olunub.

Mündəricat

Tərtibçidən 7
Xosrov Mirzənin 1829-cu il Sankt-Peterburq missiyası (Ön söz əvəzi).....10
Xosrov Mirzənin Peterburq Səfərnaməsi [Mustafa Xan Əfşar].....59
Qayıdış səfəri.....251
A.S.Qriboyedovun qətli və Xosrov Mirzənin Sankt-Peterburq səfəri ilə bağlı yazışmalar.....287

1. Fətəli şah Qacarın A.S.Qriboyedovun qətli ilə bağlı taxt-tac varisi Abbas Mirzəyə göndərdiyi məktub-fərman.....288
2. Zilli-Sultanın Abbas Mirzəyə məktubu 295
3. Abbas Mirzənin Mirzə Məsudla Rusiya imperatoruna [I Nikolaya] göndərdiyi məktub 300
4. Abbas Mirzənin general Paskeviçə məktubu 303
5. Çar I Nikolaydan Fətəli şaha 3 [15] may 1828-ci il 305
6. Abbas Mirzədən qraf Nesselrodeyə Fevral 1829-cu il 307
7. Abbas Mirzədən Mirzə Musa xana Ramazan ayı 1244-cü il [mart-aprel 1829-cu il].....308
8. Qaim-Məqamdan Mirzə Musa xana Ramazan ayı 1244-cü il [mart-aprel 1829-cu il] 311
9. Qaim-Məqamdan Mirzə Musaya Ramazan ayı 1244-cü il [mart-aprel 1829-cu il] 313

10. Abbas Mirzədən Mirzə Musaya
Ramazan ayı 1244-cü il [mart-aprel 1829-cu il].....314
11. Qaim-Məqamdan Mirzə Musaya
Ramazan ayı 1244-cü il [mart-aprel 1829-cu il] 316
12. Abbas Mirzədən Ağa Məhəmməd Həsənə.
Ramazan ayı 1244 [mart-Aprel 1829-cu il] 319
13. Lalə Həsənin məktubu 322
14. Abbas Mirzədən Mehmet Saleh Paşaya
Ramazan ayı 1244-cü il [mart-aprel 1829-cu il] 323
15. Fətəli şahdan Mehmet Saleh Paşaya 325
16. Abbas Mirzədən Hacı Molla Məhəmməd Şərifə
Zilqədə ayı 1244-cü il [may 1829-cu il] 326
17. Abbas Mirzədən Osmanlıların sərəsgərinə
[Mehmet Paşaya] Zilqədə ayı 1244-cü il
[may 1829-cu il] 327
18. Qaim-Məqamın Əmiri-Nizama [Məhəmməd xan
Zəngənə] verdiyi təlimatlar Şəvval ayının sonu
1244-cü il [may ayının əvvəli 1829-cu il] 329
19. Qaim-Məqamın Əmiri-Nizama təlimatları
Zilqədə ayının 3-ü 1244-cü il [7 may 1829-cu il]....337
20. Abbas Mirzədən Əmiri-Nizama 1244-cü il zilqədə
ayının ilk ongünlüyü [1829-cu il may ayının
birinci yarısı] 344
21. Abbas Mirzədən Əmiri-Nizama
Zilqədə ayının əvvəli 1244-cü il [may ayının birinci
yarısı 1829-cu il 346

22. Abbas Mirzədən Xosrov Mirzəyə
Zilqədə ayının sonu 1244-cü il
[may-iyun 1829-cu il] 348
23. Abbas Mirzədən Əmiri-Nizama
Zilqədə ayının sonu 1244-cü il
[may-iyun 1829-cu il].....350
24. Fətəli şahın çar I Nikolaya məktubu
1829-cu il.....353
25. Abbas Mirzənin çar I Nikolaya məktubu
1829-cu il …….....355
26. Xosrov Mirzənin imperatorun hüzurunda nitqi
22 avqust 1829-cu il …….....357
27. S.Boqlaçevin rəsmi qəbulla bağlı şərhi.....359
28. Çar I Nikolaydan Fətəli şaha
Sentyabr 1829-cu il.....364
29. Çar I Nikolaydan Fətəli şaha
6 [18] oktyabr 1829-cu il 366
30. I Nikolaydan Abbas Mirzəyə. 12
[24] oktyabr 1829-cu il 367

TƏRTİBÇİDƏN

1828-ci il Türkmənçay sülh müqaviləsinə əsasən Qacar dövlətinin nəzarətində olan Cənubi Qafqaz torpaqları Rusiya imperiyasının tərkibinə keçir. Araz çayı sərhəd olaraq qəbul edilir, Azərbaycan torpaqları ikiyə bölünür. Cənub cəbhəsindən arxayın olan Rus imperiyası Osmanlı dövləti ilə müharibəsinə davam edir. Bu zaman rus yazıçı və diplomatı, Türkmənçay sülh müqaviləsinin müzakirələrində yaxından iştirak etmiş A.S.Qriboyedov vəziri-muxtar – səlahiyyətli səfir rütbəsində Tehrana göndərilir. O, sülh müqaviləsinin şərtlərindən irəli gələn məsələlərin həllinə "qalib ölkənin səfiri kimi" yanaşaraq yerli adət-ənənələri nəzərə almır, onlara yuxarıdan aşağı baxır, necə deyərlər, qırmızı xətti keçir və Tehranda səfirlik heyəti ilə birlikdə qətlə yetirilir. Bu hadisə istər Qacarlar sarayında, istərsə də, Peterburqda böyük çaşqınlığa səbəb olur. Dövrün yazılmamış siyasi qanunlarına görə, bu hadisədən sonra səfiri qətlə yetirilən ölkə – Rusiya müharibə elan etməyə qədər ciddi addımlar atmalı idi. Bundan qorxan Qacar hökuməti də nə edəcəyini bilmirdi. Lakin Çar Rusiyası Osmanlı imperiyası ilə müharibə apardığından ona ikinci bir cəbhənin açılması əl vermirdi. Bu səbəbdən dünya dövlətləri yanında öz nüfuzunu itirməmək üçün siyasi-diplomatik danışıqlarla Qacarları yüksək nümayəndə heyəti tərkibində Peterburqa üzrxahlığa gəlməsinə sövq edirlər. Böyük hədiyyələrlə yola çı-

xan bu heyətin başında Fətəli şahın naib əs-səltənəsi Abbas Mirzənin oğlu gənc Xosrov Mirzə olur.

Təqdim olunan bu kitab üç hissədən ibarətdir:

Birinci hissədə Xosrov Mirzə və onun Peterburq səfəri haqqında Kembric Universitetinin əməkdaşı, iranşünas Firuzə Melvil tərəfindən çoxsaylı mənbələr əsasında ingilis dilində yazılmış məqaləsinin tərcüməsi təqdim edilir. İkinci hissə Xosrov Mirzənin Peterburq səfərini günbəgün qələmə almış katib Mirzə Mustafa xan Əfşarın yol qeydlərinin – səfərnamənin tərəfimizdən icra olunmuş tərcüməsindən ibarətdir. Qeyd etmək lazımdır ki, Mirzə Mustafa xan Əfşar səfərnamənin əvvəlində onun altı fəsildən ibarət olduğunu yazsa da, araşdırmalara görə onun dördüncü və beşinci fəsilləri günümüzə qədər gəlib çatmamışdır. Əldə olan dörd fəsildən isə yalnız birinci və ikinci fəsillər səfərnamə ilə bağlıdır. Üçüncü və dördüncü fəsillər isə o dövr Rusiyasının ictimai-siyasi quruluşu haqqındadır və mövzu ilə bağlı olmadığından tərcüməsi təqdim edilmədi.

Birinci və ikinci fəsillərdə Xosrov Mirzənin Peterburq səfəri, yolboyu şəhərlərdə və nəhayət Peterburqda keçirdiyi günlər təsvir edilir. Onun qayıdış səfəri fars mənbələrində təqdim edilmədiyindən o səfərin Amerika tarixçisi Corc Burnutyanın rus, fars və Avropa mənbələri əsasında tərtib edərək nəşr etdiyi yazısından tərcüməni təqdim etməyi məqsədə uyğun bildik.

Hazırkı kitabın üçüncü hissəsi də Corc Burnutyanın bu səfərlə bağlı Rus və İran arxivlərindən əldə edərək Amerikada 2014-cü ildə nəşr edilmiş "Təbrizdən Sankt-Peterburqa: 1829-cu ildə İranın Rusiyaya üzrxahlıq missiyası" adlı kitabına əlavə etdiyi diplomatik məktubların tərcüməsidir. Bu məktublar səfər hazırlığının hansı bir şəraitdə getdiyi haqda oxucuda mükəmməl təsəvvür yaradır. Səfərnamənin fars dilindən tərcüməsi zamanı yer və şəxs adlarının dəqiqləşdirilməsində də bu kitabdan yararlanmışıq.

Ümid edirik ki, kollektiv əməyin məhsulu olan bu kitab maraqla qarşılanacaq və tariximizin bir parçası olan dövrün qaranlıq məqamlarına az da olsa işıq sala biləcək.

Əkrəm Bağırov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

XOSROV MİRZƏNİN 1829-cu il SANKT-PETERBURQ MİSSİYASI[1]

(Ön söz əvəzi)

Sonra burunun Nevski prospektində deyil, Tavrida[2] parkında gəzdiyi barədə söz-söhbəə oyununa çox təəccüblənmişdi.

[N.Qoqolun "Burun" povesti,
Sankt-Peterburq, 1836-cı il]

1829-cu ilin 30 yanvar [11 fevral] tarixində Rusiyanın tam səlahiyyətli naziri Amühüm hadisənin çoxsaylı şahidlərindən biri kimi ərsəyə gəlib.[3]

---

[1]. Mövzü ilə bağlı söylədikləri çox faydalı fikirlərə görə F.Kazım zadə, Ç.Melvil, R.Məthii və S.Kroninə təşəkkür edirəm.

[2]. Paytaxtın qraf Potyomkinin sarayı və bağları kimi tanınan bu yerində həmçinin şahzadə qalırdı; Şostakoviç "Burun" əsərinə yazdığı operada [1930] həmin yeri Yay bağları adlandırır.

[3]. Səbəblər bir çox mənbə və araşdırmalarda müzakirə edilib. Bəlkə də səbəblər həddindən artıq çox idi: çox güman ki, Qriboyedovun Hindistanda Rusiyanın müstəmləkə mövcudluğu [Н.Мясоедова. О Грибоедове и Пушкине. Санкт-Петербург, 1998, səh. 126-127] və regionda Rusiya muxtariyyətinin yaradılması ilə bağlı iddialı layihələri sayəsində şəxsi səbəblərdən tutmuş yüksək siyasətə və Britaniya diplomatiyasının Persiyaya qarışmasına qədər səbəblər məcmusu mövcud idi [Е.В.Цымбал «Посмертные документы грибоедовского посольства» в сб.: Проблемы творчества А.С.Грибоедова [Смоленск, 1994], səh. 295-303]. Məni bu nəşrlə təmin etdiyi üçün Varvara Fomiçevə təşəkkür edirəm. Bu hadisənin ən son və orijinal şərhi üçün bax: H.Katouzian. The Persians: Ancient, Mediaeval and Modern Iran [New Haven, CT, 2009], səh. 145-146. Fars mənbələri arasında: Məhəmməd Tağı Lisan əl-Mülk Sepehr "Nasex ət-Təvarix" [Tarixi-Qacariyyə], I cild, [Tehran 1377/1998], səh. 425-426, 431-432.